Böyük millət işi

Sabir RUSTƏMXANLI

Tariximiz və ədəbiyyatımız həmişə, ən ağır günlərimizdə də mənim üçün bir təskinlik yeri olmuşdur; taleyimizə təkcə öz ömrümüz daxilindəki hadisələrin, indiki kiçilən coğrafiyamızın, ölüziyan ruhumuzun, qırılan ümidlərimizin kontekstində yox, həm də uzun yüzillər davam edən böyük və çətin mübarizəmizin, mürgüləyən mənəvi gücümüzün məntiqi ilə baxmaq imkanı vermişdir. Böyüklərimizin əsərləri, xatirəsi ən ağır anlarımda qolumdan tutub, həmişə onların ruhuyla toməsa can atmışam.

Bu yaxınlarda mənim dəvətimlə Bakıya gəlmiş, dünyanın çeşidli ölkələrində yaşasalar da əslən Güney Azərbaycandan olan ziyalılarımızı da belə bir "görüşə" – Nizami adına Ədəbiyyat Muzeyinə aparmışdım.

Proqrama görə vaxtımızın azlığı hər bir eksponata diqqətlə baxmaq, hər salonda aid olduğu əsərlərin sirli qatlarına enmək imkanı vermirdi; bəzi otaqlardan tələsik keçirdik; buna baxmayaraq, muzey qonaqları sehirlənmişdi.

Dünyaca ünlü yazamız, bir çox ölkədə yaşamış, müxtəlif xalqların böyük yazıçılarıyla şəxsən tanış olan ustad Rza Bərahani sonda təəssüratını bölüşərək: "Mən dünyanın heç yerində belə ədəbiyyat muzeyi görməmişəm, bu, millətin öz keçmişinə, ədəbi irsinə bu boyda məhəbbəti onun böyüklüyündən xəbər verir. Keçmişə sahib çıxdıqca, gələcəyinə yol açırsan" – dedi.

Yerində deyilmiş və çoxlarının düşündüyünün ifadəsi olan sözlərdir.

Nizami adına Ədəbiyyat Muzeyi Bakıya ilk gəlişimdən indiyədək məni həmişə cəlb edən, həyəcanlandıran bir yerdir.

Evsiz vaxtlarımda da, indi də bura öz evim kimi baxmışam, elə bilmişəm ki, eyvanlarında ulularımızın heykəlləri sıralanmış bu gözəl bina məbəddir, Nizami, Nəsimi, Füzuli kimi orda ayrıca "menzilim" olmasa da, onların qonağı olmağa və ya böyüklərimizin ruhuna dua etməyə qapıları həmişə üzümə açıqdır.

Bakıda çox uca binalar tikiləcək, çox meydanlar qurulacaq, amma əbədi olaraq onun ən gözəl guşəsi bura olacaq – Dünya Ədəbiyyatının şəriksiz zirvəsi Nizami Gəncəvinin və böyük Mirzə Ələkbər Sabirin heykəllərinin ucaldığı, memarlıq məktəblərinin, dahilərin keçmişilə bu günün qovuşduğu, görüşdüyü, har daşında bir tarix yaşayan, heç yerdə bənzəri olmayan bu misilsiz guşə – bir tərəfi İçəri şəhərin möhtəşəm Qala divarları və ayrı bir dünyaya açılan Qoşa Qala qapıları, yuxarı başda Bakı milyonçusunun yapdırdığı və doğrudan da donmuş musiqi olan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, onun yanında monolit, sonra Azərnəşrin uzaq səfərlərə çıxan gəmini xatırladan binası və bunlarla üzüə, bu amfiteatrın "səhnəsində" Nizami adına Ədəbiyyat Muzeyi...

O muzeyin solmaz çəmənzara bənzəyən kaşılı eyvanlarında heykəlləşən klassiklərimiz sanki Nizami Gəncəvinin önündə sıralanaraq illərlə bitməyən bir söhbət edirlər; İlahiyə tükənməz sevgidən, keçici, qısa ömrün dərdlərindən, dünyanın möcüzələrindən, insanın və şübhəsiz, öz milletlərinin taleyindən.

Daşdan, qranitdən yonulsun, gipsdən tökülsün – fərqi yoxdur. Hamı üçün cansız olan heykəl nəmə həmişə başqa cür görünür; bu, ruhun osl havası deyil, o ruh ayrılıb getmişdir, ancaq o ruh geri dönəndə hökmən başqa yerlər axtarmaqdansa öz ilk yuvasına bənzər yer axtarır, bu daşın, mərmərin, bürüncün köksünü yarıb içinə girmək mümkün olmadığından onun başına dolanır. Buna görə də "bura böyük ruhların dolandığı yerdir" – desək, doğru olar. Muzeyin eyvanındakı heykəllər də zamanları adlayıb bir yerə yığışdıqlarına sevinir, çünki onların məqsədi də elə bu olub; insanları, öz tərəfi eldiyi xalqı bir yerə yığmaq, bir hədəfə yönəltmək, taklonib başqalarına yem olmaqdan qorumaq.

Ədəbiyyat Muzeyini – Akademiyanın Dil və Ədəbiyyat İnstitutunun da orda yerləşdiyi vaxtlardan xatırlayıram.

Bərpa və təmir işləri gərülüb qurtarandan sonra da, ora bir neçə dəfə getmişəm.

Sonuncu bərpa şübhəsiz, ilk növbədə binanın özünü dağılıb məhv olmaqdan qorudu; bu, işin ən mühüm tərəfidir; ancaq binayla yanaşı onun içi də təzələndi; ekspozisiya yenidən quruldu. Muzeyda zəngin bir ədəbi sərvət toplanıb; bunların hamısını üzə çıxarmaq, görüntüyə düzmək şübhəsiz mümkün deyil.

1500 illik ədəbiyyatın bütün yaradıcılarını da əhatə etmək, sistemləşdirmə aparmaq, ədəbi məktəb və cərəyanları nəzərə almaq da son dərəcə çətindir. Burada çoxlu, bir-birindən maraqlı variantlar ortaya çıxa bilər. Ancaq indiki ekspozisiya məncə – "az yerdə maksimum görüntü, maksimum informasiya" düşüncəsiylə yaradılıb və birbaşa muzeyin direktoru Rafael Hüseynovun zövqü və ədəbiyyata münsibətiylə bağlıdır.

Yəni muzeyin bugünkü ekspozisiyası da onun əsəridir.

Əslində Rafael Hüseynov – bütün ömrü boyu məhz bu işlə – millətimizin yol xəritəsini, tarixi coğrafiyasını və ya söz muzeyini – indiki ekspozisiyanı yaratmaqla məşğul olub.

İstedadlı ədəbiyyatşünas alim, gözəl yazıçı-publisist, yorulmaz jurnalist, sənətşünas, orijinallıdan törcümə ustası kimi – Rafael Hüseynovun əsərləri ictimai fikrimizin min illik dönməz işıq salır: bu dövrün açılmamış sirlərini açır, döyülməmiş qapılarını döyür, unudulmışları yada salır, haqqı tapdalananların haqqını verir, qan basdırılanların öcünü alır, zülm və repressiya qurbanlarının yaralarına məlhəm qoyur, yandırılmış kitabları səhifə-səhifə, vərəq-vərəq toplayır, batırılmış səsləri guşə-guşə dirildib canlandırır... bir muzey və bir institut işini təkbaşına görür.



Sabir Rüstəmxanlı, Rza Bərahani, Rafael Hüseynov

Az qala qırx ildir yolumuz yanaşıdır – yaradıcılığını izləyir, kitablarını oxuyur, ədəbi mühitimiz və milli mədəniyyətmizlə bağlı arzularını dinləyirəm. Adam bəzən öz yaxınları, dostları haqqında sözünü axıra saxlayır, hər gün təmasda olduğuna, fikirlərini bölüşdüyünə görə yazmağa ehtiyac duymursan; elə bilirsən hər yeni kitabı haqqında fikirlərini özünə çatdırmısansa, yetərlidir; halbuki bununla iş bitmir və qələm dostlarının bir-biri haqqında sözünü heç kim deyə bilməz. Lakin mən bu məqalədə yazıçı, publisist, elmlər doktoru, millət vəkili Rafael Hüseynovun çoxşaxəli yaradıcılıq fəaliyyətinə toxunmaq istəmirəm; bu, ayrıca yazı mövzusudur. Sadəcə, onun Nizami adına Ədəbiyyat Muzeyinin indiki mənzərəsini daha önco əsərlərində, qələmiylə yaratdığını söyləmək istəyirəm.

Biz Rafael bəylə tanış olanda o hələ tələbə idi və həmədanlı Baba Tahir Üryanla məşğul idi. Onun həyatını, yaradıcılığını öyrənir, araşdırır, dübeytilərini qədim pəhləvi dilindən günümüzün türkcəsinə çevirirdi.

Sonra Məhsəti Gəncəvinin tale və yaradıcılığından sirr və şübhə pərdəsini götürdü, "Məhsəti necə varsa" adlı kitabını yazdı, rübailərini dilimizə çevirərək nəşr etdirdi. Ancaq Məhsəti arayışdırmaları bununla bitmədi. Sonrakı 25 ildə də davam elədi və nəhayət, 2005-ci ildə bu mövzuda son və mənco mübahisəsiz elmi nəticə olan "Məhsəti Gəncəvi – özü, sözü, izi" adlı iri həcmli başqa bir dəyərli kitabı meydana çıxdı. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə professor Rafael Hüseynov dünyanın bir sıra məşhur şərqşünas alimlərinin əsassız şübhələrini dağıdaraq Məhsəti Gəncəvinin uydurma, mifik bir imza olmadığını, Azərbaycan intibahının, Gəncə ədəbi məktəbinin real yetirməsi, Nizami Gəncəvinin çağdaşı olduğunu sübut etdi və onunla bir dövrdə yaşamış digər qadın şairələrimizin tərcümeyihal faktlarını dəqiqləşdirdi; Məhsəti Gəncəvinin rübailərindəki mənəvi və axlaqi dəyərləri onun yaşadığı dövrün şərq yaşam tərzi və poetik nəzərələri işığında dəyərləndirib onu axlaq "danlanlığından" qurtardı. Bu ağır, uzun illər davam edən zəhmətinə müəllif obrazlı və gözəl şəkildə yekun vurdu: "XXI əsrin yüksəkliyində görünən böyük həqiqət odur ki, bu gün dünyaya meydan oxuyan heç bir xalqın ə əsrdə Məhsəti böyüklükdə ŞƏİRƏSİ olmayıb".

Müxtəlif dünya ölkələrindəki Azərbaycan diasporunun nümayəndələri Ədəbiyyat muzeyində

Onun goldiyi qonaqtə əsaslansaq, bu il Məhsəti Gəncəvinin 900 illiyini qeyd eləmeli idik. Təəssüf ki, yada düşməmişdir.

Fars dilində yazmış klassiklərimizi oxucularımıza yenidən və əsaslı şəkildə tanıtmaq kimi çox ağır və gənclərin o qədər də qoşulmadığı bu işləri Rafael Hüseynov yaşından irəli bir səbr, təmkin və ardıcıllıqla görürdü. Eyni zamanda ərəb və fars dilində yazmış əlməz sənətkarlarımızın ədəbi əsərlərinin qeydsiz, şərtsiz Azərbaycan Ədəbiyyatının hadisəsi olduğunu montiqi nəzərə bilgiylə sübut edir, diqqəti hələ indiyədək öyrənilməmiş qədim və orta əsrlərin qüdrətli söz ustalarının yaradıcılığına cəlb edirdi.

Sonra birdən-birə alim-yazıçının Azərbaycanda hər kəsin sevimlisinə çevrilən və böyük Hüseyn Cavidin facioli ömrünə həsr olunmuş "Vaxtdan uca" kitabı meydana çıxdı. Bu, artıq bir tədqiqatçının elmi araşdırması deyildi; yazıçı Rafael Hüseynovun özünəməxsus, təkrarsız üslubuyla yazılmış və Cavidi yenidən öz doğma millətinə qaytaran həyəcanlı, acı və göz yaşlarıyla dolu bir nəğmə idi.

Nəğmə deyirəm – çünki əsərin yazıldığı üslubun əsl adını tapmaq çətindir. Bu, doğrudan-doğruya nəğmədir. Nəsrlə yazılsa da, başdan ayağa bir şeir ovqatına kökləmiş, tarıma çəkilmiş bir əsərdən qopan, sona qədər muğam kökü üstündə çağlayan və nəhayət birnəfəsə oxunan bir nəğmə.

Bir vida sözünü, itirilmiş bir əziz adamın haqqında ağını, elegiyanı, yandırıb yaxan bir sevgini, bir həsrət harayını bir neçə səhifədə bu cür yazmaq olar. Amma bütöv bir kitabı eyni havayla, bir kökdə, bir ovqatda, tarıma çəkilmiş sima bənzər cümlələrlə yazmaq qeyri-adi işdir; bu əsil şair işidir. Amma Rafael bəy şair ruhuyla bir araşdırma, dəyərləndirmə kitabını, böyük dramaturqun faciələrindəki böyüklüyü və böyüklüyündəki facioni yazmışdır.

"Yazıçı" nəşriyyatında baş redaktor işləyəndə Hüseyn Cavidin pyeslərini ruscaya çevirtdirib iki cilddə nəşr etmişdik. Sonra tərcümeçi Partnov dünyanın müxtəlif yerlərindən aldığı məktubları mənə göstərdi. Məktublar heyrətlə dolu idi. Biri təşəkkürünü bildirərək yazırdı: "Təəssüf ki, Azərbaycanda Şekspir səviyyəsində, bəlkə ondan da üstün bir dramaturqun varlığından indiyədək xəbərimiz olmayıb".

Rafael Hüseynov "Vaxtdan uca" kitabında bu həqiqəti emosional, eyni zamanda faktlara söykənən bir dillə yazmışdır. Cavidin faciəsi ilə yaşayı ölməzliyini və ədəbi-ictimai fikrimizə təsirini də göstərmiş, onun çevrəsində olmuş bir çox insanların taleyini işıqlandırmışdı.

Yadıma gəlir, kitab çıxandan sonra bizi bir yerdə Gəncə Pedaqoji İnstitutu görüşə çağırmışdılar. O qısa vaxtda Rafael məni Gəncə qəbirsanlığına dartmışdı və orda Abdulla Surun qəbrini tapmış, şəkillərini çəkmiş, qəbir daşının qəliz ərəb xəttiylə qazılmış yazısını oxumuşdu. Az sonra isə İstanbulda ali filoloji təhsil almış bu ilk, təəssüf ki, erkən itirdiyimiz dəyərli qələm sahibi haqqında məqalə yazmışdı.

Bu da bir tarixi missiyadır: unudulanları yada salmaq, incidilmişlərin ruhunu sevindirmək, rejimin qurbanlarını – şəhidləri yurduna və ədəbi kürsüsünə qaytarmaq, hər kəsə öz haqqını vermək!

Rafael bəyin Hüseyn Cavid haqqında yazması – onun Allah tərəfindən bu məqsədlə görənlərə bəxş olunmuş bir istisnasıdır. Bu, artıq bir sabit, tükənməz bir ilham mənbəyidir. Onun bu yaradıcılıq fəaliyyəti yerinə düşmüş bir insanın öz sahəsində nə qədər böyük işlər görə biləcəyinin örnəyidir.

Vaxtilə Rafael bəy Bakıdakı Amerikan Universitetində bir azərbaycanşünaslıq lektoriyası açmışdı. Ziyalılar ocağı idi. Tez-tez ora yığışıb maraqlı çıxışlara qulaq asırdıq. İndi həmin işi başçılıq etdiyi Muzeydə davam etdirir. Ədəbiyyatımızın, mədəniyyətimizin görkəmli nümayəndələri haqda keçirilən konfransların, görüşlərin materialları həm nəşr edilir, həm də Muzeyi zənginləşdirir.

Görkəmli ədəbiyyatşünas alimin, yazıçı, publisist və tərcüməçinin, elm təşkilatçısının çoxsahəli fəaliyyətinin mühüm bir qolu da onun Azərbaycan Milli Məclisinin deputatı kimi gördüyü işlərdir.

Düzünü deyim ki, vaxtilə onu deputat seçilərinə qatılmağa təhrik edənlərdən biri də mən olmuşam. İndi buna sevinirəm. Çünki deputat seçilərdən bəri həm də Avropa Şurasının üzvüdür və orda gördüyü işlərin əhəmiyyəti böyükdür, danılmazdır. Bunu hətta onu sevməyənlər də etiraf edir. Təkcə bunu deyim ki, millət vəkilinin Avropa Şurasına təqdim etdiyi, avropalı parlamentarları da inandıraraq imzalatdırdığı cəldi Milli əhəmiyyətli sənədlər və Azərbaycanın ən ağrılı problemlərinə toxunan çıxışları bir yerə yığılsa iri kitab alınar.

Bundan əlavə, o, öz araşdırıcılıq missiyasına sadiq qalaraq Strasburqa, Fransaya səfərlərində sakit oturmayıb. Avropadakı siyasi mühacirlərimizin tarixini öyrənib. Onların yaxınlarını axtarıb tapıb, ailə üzvləri ilə görüşüb. Dünyasını qürbətdə dəyişən xadimlərimizin arxivlərini toplayıb və Bakıya gətirib. İndi onları incələməklə məşğuldur.

Bütün bunlardan əlavə, ötən illərdə Avropada gördüyü işin ən mühümlərindən biri ictimai fikir tariximizin ən görkəmli nümayəndələrindən və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Əlimərdan bəy Topçubaşovla bağlıdır (Bakıda tariximizin bu nadir şəxsiyyətinin adına verilmiş küçədə hansı ağıllasa və ya qəsdən "bəy" sözünü ixtisara salıblar. Əsl rəzalətdir!).

Azərbaycan ziyalılarının bir qrupu Nizami muzeyində

Əlimərdan bəy 1934-cü ildə Parisdə rəhmətə gedib və Sen-Klu qəbristanlığında dəfn olunub. Rafael bəy ardıcıl danışıqlar apararaq çox çətinliklə olsa da yerli hakimiyyət dairələrinin razılığını almış və mozarın üstündə Əlimərdan bəyin Bakıda hazırlatdırdığı tunc büstünü ucaltmışdır. Qəbir daşında Topçubaovun məşhur kəlamı öz ana dilində hökk edilmişdir. "Birco yolumuz var – İstiqlal!" İndi bu abidə Fransada yaşayan soydaşlarımızın ziyarət yeridir. Əlimərdan bəyin məzarı üstündəki köhnə başdaşını isə Rafael bəy Parisdən Azərbaycana gətirmişdir və indi həmin yadigar da Nizami Muzeyindədir.

●●●

Etibarlı dost, saf insan, çalışmaqdan, zəhmətdən başqa əyləncəsi olmayan əsl alim haqqında demək istədiklərim Nizami adına Ədəbiyyat Muzeyinin tariximizə, mədəniyyətimizə, arxeologiyamıza, xalçaçılıq və rəssamlığımıza qucaq açmış zəngin salonları və burda qorunan maddi-mənəvi, ədəbi sərvətlərimiz barədə geniş danışmağa imkan vermədi.

Muzeyin Cənubi Azərbaycan bölməsi ilə həm də Azərbaycan ədəbiyyatının bütöv göstərilməsinin əhəmiyyətini vurğulaya bilmədim.

Onsuz da Muzeyə baxan hər kəs bunu görür. Bütün bunlar millətə, onun tarixi və mədəniyyətinə, söz sənətimizə və onun yaradıcılarına bəslənən böyük sevginin nəticəsidir.

Bu, Rafael Hüseynovun sevgisidir.

40 ilə yaxındır ki, nəfəs dərmədən öyrənir, yazır, öyrədir, axtarır, tapır, tanıdır, sevdirir, abidə qoyur, tənələrə tuş gələ-gələ, dargözlərin, qısqancların, istədadsızların iradəsini qıra-qıra, bədxahlarının pis niyyətlərini gözlərində qoyaqoya. Hər kitabıyla ədəbi ictimaiyyəti yenidən heyrətə salır.

Üzləşdiyi haqsızlıqlar onu yolundan döndərə bilmir. Çünki bələ gənclik illərindən bir həqiqəti dərk eləmişdi: "Vətənin böyük övladlarına daim daşlar atmaq, nə acı ki, bizim köhnə və tərgidə bilmədiyimiz şəkorimizdir!"

Ancaq dəyərli məsləkdaşına bir vacib həqiqəti də xatırlatmaq istəyirəm: Bu dünyada hər şey kəçib gedir – saraylar dağılır, xəzinələr dəlub-boşalır, zülm və istibdad maşınları acı xatirə-yə dönür, ancaq SÖZ qalır; bu xalq hətta cəmi ikicə misrasıyla bizə çatmış şairini də unutmur.

İşində ol! Çünki bu iş sadə iş deyil. Hamımızın müəllimi Mirzə Cəlilin "əməl, əməl, əməl" dediyi böyük MİLLƏT İşidir!